## AZƏRBAYCAN RESPUBLİKASI
## DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI

**Q Ə R A R**
**№ 9**

**Bakı şəhəri** **12 oktyabr 2023-cü il**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası Azad Sabit oğlu Abbasəliyevin Dövlət Statistika Komitəsi aparatında Sosial statistika şöbəsi müdirinin müavini-Sosial müdafiə və səhiyyə statistikası sektorunun müdiri vəzifəsinin tutulması üçün 2023-cü il sentyabr ayının 19-da keçirilən ümumi müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Abbasəliyev Azad Sabit oğlu Dövlət Statistika Komitəsi aparatında Sosial statistika şöbəsi müdirinin müavini-Sosial müdafiə və səhiyyə statistikası sektorunun müdiri vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2023-cü il iyul ayının 10-da elan edilmiş ümumi müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2023-cü il sentyabr ayının 19-da Dövlət Statistika Komitəsinin Sosial statistika şöbəsinin müdiri Elçin Hacı, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Nəsimi Məmmədov və müstəqil ekspert Mais Köçərlidən ibarət komissiya tərəfindən keçirilmişdir. Abbasəliyev Azad Sabit oğluna müsahibə komissiyasının üzvlərindən E.Hacı 16 bal, N.Məmmədov 15 bal, M.Köçərli 14 bal vermiş və nəticədə iştirakçı 15 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 20.09.2023-cü il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edildiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası qərara aldı:

1. Şikayət təmin edilsin, Abbasəliyev Azad Sabit oğlunun Dövlət Statistika Komitəsi aparatında Sosial statistika şöbəsi müdirinin müavini-Sosial müdafiə və səhiyyə statistikası sektorunun müdiri vəzifəsinin tutulması üçün 2023-cü il sentyabrın 19-da keçirilən ümumi müsahibənin nəticəsi ləğv edilsin, namizəd vəzifəyə uyğun hesab edilsin.
2. Apellyasiya Şurasının Katibliyi Dövlət Statistika Komitəsinin Apellyasiya Şuraşının qərarı qəbul edildiyi gündən onun surətini üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür.